**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN İQTİSADİYYATININ İNNOVATİV İNKİŞAFINDA TEXNOPARKLARDAN SƏMƏRƏLİ İSTİFADƏNİN TƏDQİQİ

İxtisas: 5311.01 – “Müəssisələrin təşkili və idarə olunması”

Elm sahəsi: 53 – İqtisad

İddiaçı**:** **Əliheydər Eldar oğlu Mahmudov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Dövlət Neft və Sənay Universitetinin "Sənayenin iqtisadiyyatı" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | iqtisad elmləri doktoru, professor<br>**Müşfiq Cəmil oğlu Atakişiyev** |
| **Rəsmi opponentlər:** | iqtisad elmləri doktoru, professor<br>**Elşad Yaqub oğlu Məmmədov** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Rahim Fərahim oğlu Sadıqov** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Elnur Abil oğlu Məmmədov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının ADNSU nəzdində fəaliyyət göstərən BFD 4.26 Birdəfəlik Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>__________ | AMEA-nın müxbir üzvü,<br>İqtisad elmləri doktoru, professor<br>**Qorxmaz Cahangir oğlu İmanov** |
| Dissertasiya şurasının elmi katibi<br>__________ | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Səadət Cümşüd qızı Zeynalova** |
| Elmi seminarın sədri:<br>__________ | iqtisad elmləri doktoru, professor<br>**Səfər Həsən oğlu Pürhani** |

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qlobal transformasiyalar şəraitində və problemlərin artdığı bir dövrdə iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi məsələləri ön plana çıxır. Ənənəvi mexanizmlərin və istifadə olunan praktiki alətlərin yenilənməsi zərurəti yaranır. Belə şəraitdə hər bir ölkənin iqtisadi inkişaf xüsusiyyətlərinə və resurs təminatı potensialına uyğun olaraq tədbirlərin görülməsi, iqtisadi mexanizmlərin işlənməsi və tətbiq edilməsi lazım gəlir. Dünya təcrübəsində bu kimi meyarlara cavab verən və çoxfunksiyalı xüsusiyyətləri ilə potensial investorların marağına səbəb olan iqtisadi mexanizmlərdən biri kimi texnoparklar xüsusilə fərqlənirlər. Texnoparklar ən son texnologiyaların transferi üçün kifayət qədər əlverişli xarakteristikaları ilə diqqət çəkirlər. Dövlət tərəfindən müvafiq infrastrutkurun yaradılması, enerjidaşıyıcılarla təminatın ən yüksək səviyyədə təşkili, yol infrastrukturunun formalaşdırılması, xammalla təminatın yaxşılaşdırılması, ən azından 10 il müddətinə vergi və gömrük güzəştlərinin verilməsi texnoparkların əlverişli fəaliyyət məkanı olmasının əyani ifadəsidir.

Qeyd edək ki, iqtisadiyyatın innovativ inkişafının təmin olunması məqsədilə təsirli tədbirlərin görülməsində səmərəlilik və məhsuldarlıq baxımından daha optimal hesab olunan iqtisadi mexanizmlər və vasitələr diqqət çəkirlər və bu sırada qeyd etdiyimiz kimi, texnoparklar özlərinin çoxfunksiyalılıq xüsusiyyətləri ilə xeyli cəlbedicidilər. Texnoparklar təşkilati-iqtisadi mexanizmləri baxımından burada fəaliyyət göstərən rezidentlər üçün kifayət qədər səmərəli məkan hesab olunurlar. Texnoparkların formalaşdırılmasında və inkişaf etdirilməsində əsas məqsədlərdən biri də iqtisadi inkişaf proseslərinin sürətləndirilməsi, yeni məhsuldar və texnoloji, innovativ müəssisələrin yaradılması, rəqabətqabiliyyətli və ixracyönlü məhsulların istehsalının və çeşidinin artırılmasıdır.

Azərbaycan iqtisadiyyatı son illər dinamik inkişaf yoluna qədəm qoymuşdur. Neftqaz sektorunun təkanverici qüvvəsi hesabına milli iqtisadiyyatın şaxələndirilməsi, onun strukturunun diversifikasiyalaşdırılması istiqamətində önəmli addımlar atılmışdır.

Belə ki, ölkə Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq olunmuşdur. Həmin sərəncamla kifayət qədər ciddi və prioritet vəzifələr müəyyənləşdirilmişdir. Başlıca hədəflər iqtisadiyyatın innovasiyalaşdırılmasının sürətləndirilməsi, yüksək və "ağıllı" texnologiyalar əsasında inkişafın təmin olunmasıdır. Bu proseslərdə texnoparklar mühüm funksiyaları yerinə yetirmək iqtidarındadırlar. Artıq ölkəmizdə texnopark institutunun formalaşdırılması və inkişaf etdirilməsi prosesləri gedir. Amma, hesab edirik ki, dünya təcrübəsindən yanaşdıqda texnoparkların funksiyalarından ölkəmizdə yetərincə faydalanmaq istiqamətində əsaslı uğurlar əldə olunmamışdır.

Bu qeyd olunan problemlərin fundamental şəkildə araşdırılması, tədqiqatların aparılması zərurəti yaranmışdır. Bütün bunlar dissertasiya işinin mövzusunun aktuallığını ifadə edir.

Mövzunun işlənmə dərəcəsi ilə bağlı olaraq qeyd edə bilərik ki, iqtisadiyyatın innovativ inkişaf etdirilməsi problemləri dünya iqtisad elmində XX əsrin 30-cu illərindən başlayaraq daha geniş diqqət çəkmişdir. Son 20-30 il ərzində iqtisadiyyatın innovativ inkişafında texnoparklardan istifadənin səmərəliliyi ilə bağlı araşdırmalar intensiv xarakter daşımışdır. Ölkəmizdə isə bu istiqamətdə elmi araşdırmalar əsasən son 20 ilə təsadüf edir. Azərbaycanlı iqtisadçı-alimlərdən akademik Z.Ə.Səmədzadə, A.F.Musayev, Ə.X.Nuriyev, Ə.C.Muradov, A.Ş.Şəkərəliyev, T.H.Hüseynov, T.N.Əliyev, F.H.Qasımov, Z.M.Nəcəfov, Ə.Q.Əlirzayev, Q.S.Süleymanov, Ş.T.Əliyev, A.D.Hüseynova, Ə.Q.Əliyev, A.H.Tağıyev və başqalarını qeyd etmək olar.

Klassik və müasir xarici ölkə alim və tədqiqatçılarından A.Smit, A.Marşal, P.E.Samuelson, V.D.Nordhaus, C.A.Şumpeter, R.M.Solou, R.R.Nelson, A.İ.Aqeyev, N.İ.Antipina, V.A.Barinova, Q.V.Bateneyeva, M.V.Braginets, L.V.Qluxova, A.A.Qolubev, Y.S.Yemelyanov, O.Q.Kuxarenko, V.P.Maryanenko, V.N.Ponomaryov, A.Y.Sergeyeva, P.A.Fatxuddinov, O.V.Fiyodorov və digərlərinin elmi əsərlərində iqtisadiyyatın innovativ inkişafı ilə bağlı problemlər, bu problemlərin həllində texnoparkların səmərəlilik məsələləri,

onlardan istifadənin daha fərqli mexanizmləri, texnoparkların inkişafına mane olan problemlər araşdırılmışdır.

Bunlarla belə, qeyd etdiyimiz kimi iqtisadiyyatın innovativ inkişafı yeni yanaşmaları və mexanizmləri tələb edir, daha səmərəli iqtisadi mexanizmlərin işlənməsi və tətbiqinin vacibliyi diqqət çəkir. Bu amillər baxımından iqtisadiyyatın innovativ inkişafında texnoparklarda səmərəli istifadənin tədqiqinə zərurət ciddi olaraq qalmaqdadır.

**Tədqiqatın obyekti** iqtisadiyyatın innovativ inkişafında səmərəli iqtisadi mexanizm kimi xarakterizə olan texnoparklar və onlarla bağlı fəaliyyət prosesləridir.

**Tədqiqatın predmeti** isə Azərbaycan iqtisadiyyatının innovativ inkişafında texnoparklardan səmərəli istifadənin təmin edilməsi, bununla bağlı fəaliyyət proseslərinin və mövcud mexanizmlərin təkmilləşdirilməsi istiqamətlərindən ibarətdir**.**

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi Azərbaycan Respublikasında müasir dövrdə iqtisadiyyatın innovativ inkişafında texnoparklardan səmərəli istifadənin təmin olunması proseslərinin tənzimlənməsi və təkmilləşdirilməsi istiqamətində elmi-iqtisadi və praktiki cəhətdən əsaslandırılmış təkliflərin hazırlanmasıdır. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və dissertasiyanın strukturuna uyğun olaraq araşdırılmışdır:

- İqtisadiyyatın innovativ inkişafı proseslərində texnoparklardan istifadə olunması üzrə nəzəri-metodoloji yanaşmaların tədqiqi və ümumiləşdirmələrin verilməsi;
- Hazırkı dövrün çağırışları şəraitində texnoparkların iqtisadiyyatın innovasiyalaşdırılmasında vacib iqtisadi mexanizm kimi xüsusiyyətlərinin araşdırılması;
- İqtisadiyyatın innovativ inkişafının sürətləndirilməsində texnoparklardan səmərəli istifadə üzrə dünya təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi;
- Azərbaycanda texnoparkların yaranması və inkişaf etdirilməsi proseslərinin təhlili;
- Texnoparkların səmərəli fəaliyyəti nəticəsində iqtisadiyyatın innovativ inkişafına təsirinin qiymətləndirilməsinin aparılması;

– Texnopar institutunun inkişaf etdirilməsi və iqtisadiyyatın innovasiyalaşdırılmasında ondan səmərəli istifadə üzrə qanunvericiliyin gücləndirilməsi məsələlərinə baxılması;
– İşğaldan azad olunmuş ərazilərin dirçəldilməsi və postpandemiya çağırışlarına uyğun olaraq iqtisadiyyatın innovasiyalaşdırılmasında texnoparklara mövcud dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin araşdırılması və təkmilləşdirilməsi;
– Yeni çağırışlar şəraitində Azərbaycanda iqtisadiyyatın innovativ inkişafının təmin olunmasında texnoparklardan istifadənin səmərəli fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsinə dair təkliflərin və tövsiyələrin hazırlanması və s.

**Tədqiqat metodları.** Tədqiqatın aparılması zamanı, onun strukturuna uyğun olaraq qoyulan problemlərin araşdırılması təmin edilmişdir. Həmin proseslərdə analiz, sintez, müqayisə və ümumiləşdirmə metodlarından, dinamika sıralarının təhlilindən, analitik-hesablama metodundan və digər üsullardan istifadə edilmişdir. Nəzəri-metodoloji yanaşmalar olaraq, iqtisadiyyatın innovativ inkişafında texnoparklardan səmərəli istifadəyə imkan verən və bununla bağlı prosesləri tənzimləyən qanunlardan, normativ-hüquqi sənədlərdən, eyni zamanda ixtisaslaşdırılmış elmi-tədqiqat institutlarının və mərkəzlərinin metodoloji materiallarından və digər mənbələrdən istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar** bunlardır:
– Qlobal transformasiyalar və yüksək texnolgiyaların sürətli inkişaf etdiyi bir dövrdə iqtisadiyyatın innovativ inkişafının daha səmərəli iqtisadi mexanizmlər vasitəsi hesabına təmin olunmasına ciddi zərurət yaranmışdır;
– İqtisadiyyatın innovativ inkişafının sürətləndirilməsində texnoparklar çoxfunksiyalı və səmərəli iqtisadi mexanizm kimi faydalı ola bilər;
– Milli iqtisadiyyatı inkişaf etməkdə olan ölkələrdə innovativ inkişaf səviyyəsini təmin etmək üçün, innovasiyalar və texnologiyalar baxımından güclü inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsinə ehtiyac vardır;

- Azərbaycanda iqtisadiyyatın innovativ inkişafında texnoparkların səmərəliliyinin təhlil olunması tələb olunur;
- Texnoparkların xüsusiyyətləri və potensialı nəzərə alınmaqla, onların iqtisadiyyatın innovativ inkişafına təsirinin obyektiv şəkildə qiymətləndirilməsi zərurəti yaranmışdır;
- Azərbaycanda iqtisadiyyatın inovativ inkişafı proseslərində texnoparklardan istifadənin səmərəliliyinin yüksəldilməsi üzrə hüquqi normativ bazanın və dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi səmərəli ola bilər;
- İşğaldan azad olunmuş ərazilərin dirçəldilməsi və postpandemiya dövrünün çağırışları nəzərə alınmaqla, iqtisadiyyatın innovasiyalaşdırılmasında texnoparkların rolunun artırılması zərurəti yaranmışdır;
- Yeni şəraitdə iqtisadiyyatın innovasiyalaşdırılmasının sürətləndirilməsi və bu proseslərdə texnoparklardan səmərəli istifadənin təmin edilməsi fayda gətirər.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Müasir dövrün çağırışlarından yanaşmaqla, iqtisadiyyatın innovativ inkişafının intensivləşdirilməsində və yüksək texnologiyaların daha fəal şəkildə tətbiq edilməsində texnoparklardan istifadənin səmərəliliyi üzrə yeni yanaşmalar müəyyənləşdirilmiş və elmi-praktiki baxışlar formalaşdırılmışdır;
- Milli iqtisadiyyatın inkişafının yeni səviyyəyə qaldırılmasında innovasiyaların strateji əhəmiyyətindən çıxış etməklə, iqtisadiyyatın innovativ inkişafında texnoparkların mühüm iqtisadi mexanizm kimi xüsusiyyətləri müəyyənləşdirilmişdir;
- Qlobal şəraitdə iqtisadiyyatın modernizasiyasında və onun innovativ inkişafında texnoparklardan istifadənin səmərəliliyini ifadə edən amillər əsas götürülməklə, texnoparkların innovativ inkişafda roluna konseptual yanaşmaların blok-sxemi hazırlanmışdır;
- İqtisadiyyatın innovativ inkişaf mexanizmlərinin təhlilindən baxmaqla, keyfiyyət və kəmiyyət meyarları araşdırılmaqla, texnoparkların innovativ iqtisadi inkişaf proseslərinə təsiri əsas götürülmklə, qlobal şəraitdə iqtisadiyyatın modernizasiyasında

texnoparkların rolunu şərtləndirən amillərin blok-sxemi verilmişdir;

- Dünya təcrübəsi üzrə tədqiqat materialları əsasında araşdırmalardan yanaşmaqla, texnoparkların innovativ iqtisadi inkişaf proseslərində çoxfunksiyalı və səmərəli olmasını ifadə edən amillər müəyyənləşdirilmiş və texnoparkların makroiqtisadi mühitinin konseptual modeli hazırlanmışdır;
- Qlobal transformasiyalar konteksində Azərbaycanda iqtisadiyyatın modernləşdirilməsində texnoparklardan istifadənin strateji aspektləri sxemləşdirilmiş və texnoparkların çoxfunksiyalıq xüsusiyyətləri müəyyənləşdirilmişdir;
- Texnoparkların iqtisadiyyat sahələrinin inkişafına təsirinin qiymətləndirilməsi meyarları, onların səmərəliliyinin artırılması üçün inzibati-hüquqi, bazar və maliyyə mexanizmləri əsaslandırılmış və sxematik olaraq işlənilmişdir;
- Azərbaycanda iqtisadiyyatın innovativ inkişafında texnoparkların səmərəliliyini şərtləndirən amillərin GZİT-təhlilindən yanaşmaqla, Sumqayıt Texnologiyalar Parkının bir qrup göstəriciləri əsasında ölkəmizdə texnoparklardan istifadənin və onlara yatırılan investisiyaların səmərəliliyi qiymətləndirilmiş, mövcud problemlər açıqlanmış və bu istiqamətdə fəaliyyət strategiyalarının gücləndirilməsinin vacibliyi əsaslandırılmışdır;
- Azərbaycanda texnoparkların yaradılması və inkişaf etdirilməsi proseslərinin təhlilindən və qiymətləndirilməsindən çıxış etməklə, texnoparklara dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsinin zəruliliyi əsaslandırılmış və müasir dövrün tələblərinə adekvat təşkilati və hüquqi, iqtisadi və sosial-psixoloji dövlət dəstəyi tədbirlərinin blok-sxemi hazırlanmışdır;
- Ölkəmizdə iqtisadiyyatın innovasiyalaşdırılması hədəflərindən çıxış etməklə, texnoparklarda təşkilati-iqtisadi mexanzimlərin optimal hazırlanması və reallaşdırılmasının alqoritm-sxemi işlənmişdir;
- Azərbaycanda iqtisadiyyatın innovativ inkişafının sürətləndirilməsində texnoparklardan maksimum səmərəli

istifadə edilməsi məqsədilə, onlara verilən güzəştlərin stimullaşdırıcı xüsusiyyətləri açıqlanmış, maliyyə mexanizmlərinin bazis şərtlri verilmiş, dövlət dəstəyi mexanzimləri və alətlərinin blok-sxemi hazırlanmışdır;

– Azərbaycanda işğaldan azad olunmuş ərazilərin dirçəldilməsində və postpandemiya dövründə yeni çağırışlara adekvat tədbirlərin reallaşdırılmasında iqtisadiyyatın innovativ inkişafının təmin edilməsi, "ağıllı" texnologiyaların daha geniş spekterdə tətbiqinin həyata keçirilməsi üçün texnoparkların rolunun artırılması və texnoparklardan səmərəli istifadənin təşkili istiqamətləri müəyyənləşdirilmişdir və s.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində əldə edilmiş elmi-praktiki nəticələrdən ölkəmizdə iqtisadiyyatın inkişafının modelləşdirilməsi, onun innovativ inkişafının sürətləndirilməsi, texnopark institutunun inkişaf etdirilməsi proseslərində istifadə olunması mümkündür və faydalı ola bilər. Eyni zamanda, dissertasiya işində verilmiş elmi-nəzəri müddəalardan dərsliklərin, dərs və metodiki vəsaitlərinin hazırlanmasında istifadə olunması mümkündür.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğun olmaqla, müasir dövrdə aktual məsələlər kimi daimi fəaliyyət göstərən elmi seminarlarda müzakirə olunmuş və bəyənilmişdir.

Dissertasiya işinin mövzusu üzrə iddiaçının 12 məqalə və tezisi, o cümlədən, 1 məqalə və 1 tezisi xaricdə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda, respublika və beynəlxalq konfransların materiallarında dərc olunmuşdur (məqalə və tezislərin siyahısı işin ədəbiyyat siyahısında əks olunmuşdur).

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət Neft Sənaye Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Üz qabığı və mündəricat (2759 işarə), giriş (17003 işarə), I fəsil (68798 işarə),

II fəsil (71055 işarə), III fəsil (69639 işarə), nəticə (9100 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (28946 işarə) üzrə ümumi həcm 279956 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər və istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 228131 işarədir.

## MÜNDƏRİCAT

**GİRİŞ.**

**I FƏSİL. İQTİSADİYYATIN İNNOVATİV İNKİŞAFINDA TEXNOPARKLARDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ**

1.1. İqtisadiyyatın innovativ inkişafında texnoparklardan istifadənin səmərəliliyinin artırılmasına nəzəri yanaşmaların və metodoloji xüsusiyyətlərin tədqiqi

1.2. Müasir dövrdə texnoparklar – iqtisadiyyatın innovasiyalaşdırılmasında mühüm iqtisadi mexanizm kimi.

1.3. İqtisadiyyatın innovativ inkişafında texnoparklardan səmərəli istifadə olunması üzrə beynəlxalq təcrübə.

**II FƏSİL. AZƏRBAYCANDA TEXNOPARK İNSTİTUTUNUN SƏMƏRƏLİLİYİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ**

2.1. Ölkədə texnoparkların yaradılması prosesləri və onların səmərəliliyinin yüksəldilməsini şərtləndirən amillərin təhlili.

2.2. İqtisadiyyatın innovativ inkişaf etdirilməsində texnoparkların rolunun qiymətləndirilməsi.

2.3. Regional aspektdə iqtisadiyyatın innovativ inkişafının səmərəliliyinin təmin olunmasında və investisiya cəlbediciliyinin artırılmasında texnoparkların rolunun qiymətləndirilməsi

**III FƏSİL. AZƏRBAYCANDA İQTİSADİYYATIN İNNOVATİV İNKİŞAF ETDİRİLMƏSİNDƏ TEXNOPARKLARDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI PERSPEKTİVLƏRİ**

3.1. İqtisadiyyatın innovativ inkişafında texnoparklardan səmərəli istifadə üzrə qanunvericiliyin gücləndirilməsi və təşkilati-iqtisadi mexanizmlərin tənzimlənməsi.

3.2. Postkonflikt ərazilərin dirçəldilməsi və postpandemiya amilləri kontekstində texnoparkların dövlət dəstəyi mexanzimlərinin təkmilləşdirilməsi

3.3. Yeni çağırışlar şəraitində iqtisadiyyatın innovativ inkişafında texnoparklardan səmərəli istifadənin təşkili istiqamətləri.

**NƏTİCƏ.**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Tədqiqat işinin girişində mövzunun aktuallığı,işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, əsas müddəalar, elmi yeniliklər və s. verilmişdir.

Dissertasiyanın **"İqtisadiyyatın innovativ inkişafında texnoparklardan istifadənin səmərəliliyinin yüksəldilməsinin nəzəri-metodoloji aspektləri"** adlı birinci fəslində iqtisadiyyatın innovativ inkişafında texnoparklardan istifadənin səmərəlilyinin artırılmasına nəzəri yanaşmalar və metodoloji xüsusiyyətlər tədqiq edilmiş, müasir dövrdə iqtisadiyyatın innovasiyalaşdırılmasında texnoparkların rolu baxılmış və iqtisadiyyatın innovativ inkişafında texnoparklardan səmərəli istifadə olunması üzrə beynəlxalq təcrübə araşdırılmışdır.

Nəzəri yanaşmalar baxımından qeyd etmək istərdik ki,R.A.Solou isə, belə hesab edirdi ki, hər hansı zaman kəsiyində səmərəli fəaliyyət göstərən iqtisadi mexanizmlərin müəyyən müddətdən sonra yenilənməsi vacibdir[1]. Bu baxımdan biz də belə düşünürük ki, iqtisadiyyatın daha səmərəli inkişaf etdirilməsi üçün yeni mexanizmlərin işlənilməsi və müasir dövr baxımından innovativ inkişafın təmin edilməsi zəruri amil kimi formalaşmışdır. C.Şumpeterin yanaşmalarında isə iqtisadiyyatın innovativ inkişafı daha çox ön planan çıxarılmışdır[2]. Qeyd olunan yanaşmalar da nəzərə alınmaqla, iqtisadiyyatın yeni mexanizmlər hesabına inkişaf etdirilməsi və milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi məqsədilə innovativ inkişafın dərinləşdirilməsi daha intensiv şəkildə səmərə verə bilər və bu halda bir sıra amilləri ümumiləşdirmək olar: 1) əmək resurslarının kəmiyyətinin və keyfiyyətinin artırılması; 2) əsas kapitalın həcminin artırlması və tərkibinin keyfiyyətcə yaxşılaşdırılması; 3) istehsalat texnologiyalarının və təşkili mexanizmlərinin təkmilləşdirilməsi; 4) təsərrüfat dövriyyəsinə cəlb

---

[1]Solow, R.M. A Contribution to the Theory of Economic Growth // The Quarterly Journal of Economics. – 1956, Vol.70, No.1, – p. 73.

[2] Shumpeter, J.A. Business Cycles. Theoretical, Historical and statistical Analysis of Capitalist Proces. N. Y., – 1939. Vol. 1.2. – p. 154.

olunmuş təbii resurslarının kəmiyyət və keyfiyyətcə yüksəldilməsi və 5) cəmiyyətdə sahibkarlıq fəaliyyətinin və bacarığının artması.

Qeyd edək ki, innovativ iqtisadiyyatın formalaşması üçün iqtisadi sistemdə məqsədi innovasiya fəaliyyətini dəstəkləmək və stimullaşdırmaq olan ixtisaslaşmış təşkilat və qurumların olması zəruridir. Məhz onlar innovasiya infrastrukturunu formalaşdırırlar. İnfrastrukturun əsas elementlərinə texnoparklar, innovasiya mərkəzləri, biznes inkubatorlar, texnopolislər və s. daxildir. İnnovasiya infrastrukturunun səmərəliliyi onun elementlərinin vəhdətindən asılıdır ki, bunlardan ən mühümü texnoparklardır. Texnopark zəruri sənaye və texnoloji infrastrukturla təchiz edilmiş, ərazisində elmi tədqiqatların həyata keçirilməsini və belə tədqiqatların nəticələrinin istehsalata tətbiqini sürətləndirmək mümkün olan platformadır. Texnoparklar bilik tutumlu firma və texnologiyaların inkişafını, perspektivli innovasiyaların seçilməsini və dəstəklənməsini təmin edirlər.

Eyni zamanda, müasir dövrdə texnoparklar biznesə dəstək infrastrukturunun əsas elementlərindən biri kimi çıxış edir. Bu gün texnoparkların mahiyyətini açıqlayan dəqiq tərif demək olar ki, yoxdur. Texnopark innovativ fəaliyyətin inkişafına, maliyyə və kadr yardımı ilə kiçik və orta müəssisələrin formalaşması üçün əlverişli şəraitin yaradılmasına əsaslanan ixtisaslaşmış elmi-tədqiqat və istehsalat kompleksidir. Texnopark hüquqi şəxs və ya universitetin, elmi-tədqiqat və ya istehsalat müəssisələrinin struktur bölməsi kimi çıxış edə bilir. Ümumilikdə, texnoparkların əsas məqsədi rezident şirkətlərin inkişafı üçün əlverişli mühit yaratmaq və elm, texnologiya və innovasiya sahəsində sahibkarlığın inkişafına kömək etməkdir. Texnoparklar bir sıra xidmətlər göstərir ki, həmin xidmətlərdən kommersiya nöqteyi-nəzərindən elmi biliklərə yiyələnən kiçik və orta innovativ müəssisələr istifadə edə bilərlər. Texnoparklarda həmçinin rezident şirkətlərin innovativ istehsal və texnoloji infrastruktur obyektləri də yerləşdirilə bilər. Belə infranstruktur obyektlərinə biznes inkubatorlarını, texnologiya transferi mərkəzlərini, injinirinq mərkəzlərini və digərlərini aid edə bilərik . Texnoparklar istehsalın, elmi-texniki sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın inkişafını təmin edəcək iqtisadi mühitin

yaradılmasına, habelə rəqabətqabiliyyətli və keyfiyyətli məhsulların istehsalına və həmin məhsulların daxili və xarici bazarlara çıxarılmasına kömək edir. Texnoparklar iqtisadiyyatın yüksək texnologiyalı və bilik tutumlu sahələrinin müəssisələrini kadr potensialı ilə təmin edəcək elmi təşkilatları, təhsil müəssisələrini, habelə elmi istehsalatlarla əlaqəli olan və ya onlara xidmət göstərməyə yönəlmiş digər müəssisələri birləşdirir. Texnoparkların fərqləndirici keyfiyyəti ondan ibarətdir ki, onların infrastruktur obyektləri dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına yaradılır. Texnoparklarda müxtəlif xidmətlər göstərən hüquqi, maliyyə, informasiya texnologiyaları, marketinq və digər təşkilatlar, habelə fəaliyyəti yüksək texnologiyalar sahəsində vençur maliyyələşdirilməsinin həyata keçirilməsinə yönəlmiş biznes inkubatorlar yerləşə bilər.

Şəkil 1-də texnoparkların yaradılması və iqtisadiyyatın innovativ inkişafında onlardan səmərəli istifadə edilməsinə konseptual yanaşmaların blok-sxemi verilmişdir

Qeyd edək ki, beynəlxalq yanaşmalarda texnoparkların səmərəliliyinin qiymətləndirilməsində onların innovatik göstəriciləri də yüksək səviyyədə nəzərə alınır[3]. Texnoparklar şəbəkəsinin səmərəliliyi əsasən 2 cür meyarlara görə müəyyənləşdirilir: keyfiyyət və kəmiyyət meyarları. Bu meyarlar nəzərə alınmaqla, texnoparkın fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi verilmiş keyfiyyət göstəricilərinə əsaslanır və bu düsturla hesablanır:

$$S = \frac{\sum_{i=1}^{K_i} b_i}{K_{\text{ü}.s.} - K} \, 100\ \%$$

burada:

$S$ - texnoparkın fəaliyyətinin səmərəliliyi;

$K_{\text{ü}.s.}$ - keyfiyyət meyarların ümumi sayı;

$K$ - $i$ - keyfiyyət meyarı;

$b_i$ - $i$ - keyfiyyət meyarının qiymətləndirmə balı.

[3] Методика ЮНИДО по развитию технопарков - [Электрон ресурс] / URL: http://www.unido-russia.ru/archive/num8/art8_8/.




**Şəkil 1. Texnoparkların yaradılması və iqtisadiyyatın innovativ inkişafında onlardan səmərəli istifadə edilməsinə konseptual yanaşmaların blok-sxemi (müəllif tərəfindən hazırlanmışdır).**

Qeyd edək ki, qlobal texnologiyalar kontekstində texnoparklardan istifadənin modelləşdirilməsi mühüm əhəmiyyət kəsb edir[4]. Əgər 1975-ci ildə dünyada 79 belə qurumlar olduğu halda,

---

[4] Aslanzadə, İ.A. Dövlət innovasiya siyasətinin formalaşması və sənaye sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri: / İqtisad elmlər doktoru dis. avtoreferatı. / – Bakı, 2013. – 56 s.

2020-ci ildə artıq onların sayı 140 ölkə üzrə 5 minə çatıb. Nəzərə almaq lazımdır ki, texnoparklar texnologiya-innovativ tipli xüsusi zonaların formalarıdır. Bu, dövlət dəstəyindən istifadə edən tədqiqat, layihə və istehsal firmalarının cəmləşdiyi ərazidir.

Dünya təcrübəsində texnoparkların inkişafı üzrə üç modelə rast gəlmək mümkündür. Amerika, Avropa və Asiya. Amerika texnoparkları bu modellər arasında ilk yarananlardandır. Bu texnopark modeli tədqiqat, inkişaf və kiçik istehsal üçün nisbətən aşağı qiymətə torpaq, sənaye binaları, laboratoriyalar, xüsusi avadanlıq və s. icarəyə götürən gənc şirkətlərdən ibarətdir. Amerika modeli elmi və innovativ prosesin işlənməsi istiqamətində ideyaları özündə ehtiva edir. Avropa modeli 1980-ci illərdən etibarən Qərbi Avropada geniş yayılmışdır. Avropa modeli üç əsas təsisçinin məcburi iştirakını nəzərdə tutur: universitet və ya tədqiqat mərkəzi, şəhər və ya regional müdriyyət və idarəetmə şirkəti. Asiya modeli – bu texnopark modeli ilk olaraq Yaponiyada yaradılmışdır. Yapon modelinin başlıca xüsusiyyətlərini Tsukubada fəaliyyət göstərən texnoparkın timsalında görmək olar və əsas yanaşma texnologiyaların yüksək dəqiqliyi ilə əlaqəlidir. Qarışıq model Amerika və Yapon modellərinin bir hissəsini birləşdirən parklardır. Buna misal olaraq Fransanın elm parkları, xüsusən də onlardan ən böyüyü "Sophia Antipolis"dir[5].

İşin **"Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılması və maliyyələşdirilməsi proseslərinin qiymətləndirilməsi"** adlı ikinci fəslində ölkədə texnoparkların yaradılması prosesləri və onların səmərəliliyinin yüksəldilməsini şərtləndirən amillərin təhlili aparılmış, iqtisadiyyatın innovativ inkişaf etdirilməsində və regional aspektdə iqtisadiyyatın innovativ inkişafının səmərəliliyinin təmin olunmasında, investisiya cəlbediciliyinin artırılmasında texnoparkların rolu qiymətləndirilmişdir.

Son onilliklərdə Azərbaycanda milli iqtisadiyyatın dinamik inkişafı təmin edilmişdir və bu proseslərdə bazar iqtisadiyyatı

[5]Пономарев, М.В., Савельева, Л.В. Университетские технопарки: универсальная модель и инструменты цифрового проектирования. Информационные технологии и архитектура, 2021. №4(57). С. 381.

prinsiplərinin dərinləşdirilməsi önəmli rol oynamışdır. ölkə ÜDM-də qeyri-dövlət sektorunun payı 2005-ci ildə 77,8 % olmuşdursa, bu göstərici 2020-ci ildə 80,8 %, 2021-ci ildə isə 83,5 % təşkil etmişdir. Hazırda kənd təsərrüfatı sahəsində qeyri-dövlət sektorunun payı 100 %-ə yaxındır. Ölkəmizdə qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi istiqamətində son illərdə dövlət tərəfindən davamlı tədbirlər görülməkdədir. Xüsusilə, emal sənayesi sahələri üzrə dinamik artımın təmin olunması strateji vəzifələr sırasındadır.

Şəkil 2-də Azərbaycanda emal sənayesi üzrə məhsul istehsalı həcminin dinamikası verilmişdir və buradan göründüyü kimi 2014-cü illə nisbətdə artım 47 % təşkil etmişdir.




**Şəkil 2. Azərbaycanda 2014-2021-ci illərdə emal sənayesi məhsulunun dinamikası, mlrd. manatla (ARDSK-nın məlumatları əsasında hazırlanmışdır).**

Özlüyündə bu artım heç də çox deyildir, buna görə də, əvvəldə qeyd etdiyimiz kimi iqtisadiyyatın neftdən asılılığının minimuma endirilməsi üçün daha dayanıqlı və yüksək tempə malik qeyri-neft sektoru sahələrinin imkanlarından daha intensiv istifadə edilməli, eyni zamanda iqtisadiyyatın innovasiyalaşdırılması hesabına istehsal sahələrin yaradılması təmin edilməlidir. Texnoparklarda dövlət tərəfindən dəstək mexanizmlərinin olması sahibkarlıq və biznes subyektələrinin səmərəli fəaliyyətinə imkan verən amillərdəndir və praktikada bunlardan maksimum məhsuldar istifadə edilməsinə ciddi ehtiyac qalmaqdadır.

Son illərdə Azərbaycanda milli iqtisadiyyatının strukturunun şaxələndirilməsi və bununla da onun rəqabət qabiliyyətinin

artırılması istiqamətində önəmli addımlar atılmaqadadır. 2030-cu ilədək olan dövr əsas götürülməklə, iqtisadi inkişafın milli prioritetləri müəyyənləşdirilmiş, hədəflər ortaya qoyulmuşdur. Bunlarla bərabər, daha məhsuldar və innovasiyayönlü fəaliyyət mexanizmlərinin işlənilərək tətbiq edilməsi aktuallığı ilə xeyli fərqlənir. Məhz bu baxımdan hesab edirik ki, göstərilən prioritetlərin həyata keçirilməsində texnoparklar daha çox səmərə verə bilərlər. Belə ki, çoxfunksiyalı xüsusiyyətləri hesabına, texnoparklar bu və ya digər iqtisadiyyat sahəsinin inkişaf problemlərinin həll edilməsini sürətləndirə bilər və bunun üçün tələb olunan fəal rəqabət mühitini, şəffaf investisiya və biznes fəaliyyəti məkanını formalaşdırar. Bunlar isə öz növbəsində texnopark rezidentlərinin rəqabətqabiliyyətinin artmasına daha intensiv olaraq dünya bazarlarına çıxmasına, innovasiyalı məhsulların çeşidinin genişləndirilməsi və həcminin artırılması sayəsində milli iqtisadiyyatın məhsuldar əlavə dəyər, malkiyyə mənbələrinin, həmçinin iqtisadi artım mənbələrinin yaradılmasında faydalı funksiyaları həyata keçirməyə imkan verər.




**Şəkil 3. Azərbaycanda 2010-2021-ci illərdə emal sənayesində formalaşan əlavə dəyərin ÜDM-ə nisbəti və orta və yüksək texnoloji sənayenin əlavə dəyərinin ümumi əlavə dəyərdə xüsusi çəkisi, %-lə ("Dayanıqlı İnkişaf Məqsədləri". Statistik icmal, 2022, 281 s. - əsasında müəllif tərəfindən hazırlanmışdır).**

Şəkil 3-dən yanaşdıqda, emal sənayesində formalaşan əlavə dəyərin ÜDM-də nisbəti 2010-cu ildə 4,7 % olduğu halda, 2015-ci ildə-5 %, 2020-ci ildə 6,1 % və 2021-ci ildə isə 6,8 % səviyyəsində olmuşdur.

Hesab edirik ki, iqtisadiyyatın innovasiyalaşdırılması proseslərinin sürətləndirilməsi bu artım tempinə də xeyli təsir göstərərdi.

Cədvəl 1-də Azərbaycanda 2014-2021-ci illərdə iqtisadiyyatın innovativ inkişafına təsir edən bir qrup göstəricilərin dinamikası təhlil olunmuşdur.

**Cədvəl 1**

**Azərbaycanda iqtisadi artıma təsir edən əsas göstəricilərin dinamikası (2014-2021-ci illər)**

| Göstəricilər | Ölçü vahidi | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|---|
| əsas kapitala yönəldilmiş vəsaitlər | mlrd. man | 17,6 | 15,96 | 15,77 | 17,4 | 17,24 | 18,5 | 17,2 | 16,8 |
| əsas fondlar | mlrd. man | 0 | 110,7 | 124 | 169,1 | 182,8 | 201,3 | 240,7 | 247,6 |
| iqtisadiyyata kredit qoyuluşları | mlrd. manat | 18,5 | 21,7 | 16,4 | 11,8 | 13 | 15,3 | 14,5 | 17,1 |
| iqtisadiyyata yönəldilən investisiyalar (bütün mənbələr üzrə) | mlrd. manat | 21,9 | 20,1 | 22,7 | 24,5 | 26 | 25,0 | 22,5 | 25,3 |
| xarici investisiyalar, o cümlədən | mlrd. dollar | 11,7 | 10,7 | 10,2 | 9,1 | 8,2 | 7,1 | 6,1 | 7,5 |
| birbaşa xarici investisiyalar, o cümlədən | mlrd. dollar | 8 | 7,5 | 7,3 | 5,7 | 4,1 | 4,3 | 4,5 | 4,8 |
| qeyri-neft sektoruna | mln. dollar | 1318,5 | 860,4 | 1706,2 | 813 | 967,1 | 930,1 | 605,6 | 790,4 |

**Qeyd: Cədvəl ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.**

Cədvəl 1-dən nəzər salsaq 2014-2021-ci illərdə iqtisadiyyata yönəldilən əsaslı kapital qoyuluşunun ümumi dinamikasından yanaşsaq, bu dövr ərzində ölkə iqtisadiyyatına yönəldilən əsaslı kapital qoyuluşunun ümümumi həcmi - 136,5 mlrd. manat təşkil etmişdir. Həmin dövr ərzində əsas fondların ümumi dəyəri – 2,23 dəfə artmışş və 2021-ci ildə 248 mlrd manata yaxın olmuşdur. İqtisadiyyata kredit qoyuluşunun həcmi isə - 128,3 mlrd. manat səviyyəsində qeydə alınmışdır. Bütün mənbələr üzrə investisiyalar isə 188 mlrd. manat təşkil etmişdir. Amma, bütünbünlların müqabilində qeyri-neft sektoruna cəlb olunan birbaşa xarici investisiyalr o qədər də yüksək olmamışdır.

2010-2021-ci illər üzrə innovasiya fəaliyyəti proseslərini təhlil etmək xeyli çətindir. Belə ki, mövcud statistika sənaye sahələrinin əhatə edir və hesab edirik ki, tam olaraq reallığı əks etdirmir (bax: cədvəl 2).

**Cədvəl 2**

**Ölkə üzrə əhəmiyyətli dəyişikliklər olmuş və yeni tətbiq edilmiş innovasiya məhsulunun iqtisadi fəaliyyət növləri üzrə həcmi, 2010-2021-ci illər, min manat**

| İqtisadi fəaliyyət növləri üzrə: | İLLƏR | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
| *Sənaye - cəmi* | 4384 | 13163 | 23052 | 11634 | 12319 | 929,7 | 35747 | 14777 | 28952,2 | 21698,1 | 11759,7 | 60977,2 |
| Mədənçıxarma sənayesi | - | 2073 | 396,1 | 326 | - | - | 129,6 | - | 215,3 | 2495 | 2415,5 | 2843,4 |
| *Emal sənayesi, onlardan* | 4384 | 11090 | 22656 | 11308 | 12319 | 929,7 | 35617 | 14777 | 28736,9 | 19202,4 | 9344,2 | 58133,8 |
| Qida məhsullarının istehsalı | | | | | | | 402,5 | 590 | 831,2 | 328,0 | - | 3859,2 |
| İçki istehsalı | | 3500 | 18200 | | 3974 | 758 | 41,5 | - | - | - | - | - |
| Toxuculuq sənayesi | | | | 8933 | 3098 | | 12844 | - | - | - | 2121,3 | - |
| Geyim sənayesi | | | | | | | 5213 | - | - | - | - | - |
| Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | | | | | | | 48 | - | - | - | - | - |
| Ağac emalı və ağacdan məmulatların istehsalı | | 498,1 | | | | | | - | - | - | - | - |
| Neft məhsullarının istehsalı | | | | 103,3 | | | | - | - | - | - | - |
| Kimya sənayesi | | | 3049 | 465,5 | 0,3 | 13,4 | 522,4 | 1705 | 55,0 | - | - | - |
| Rezin və plastik kütlə məmulatlarının istehsalı | | | | | | | 171,3 | - | - | - | - | - |
| Tikinti materiallarının istehsalı | | | | 1159 | | | 6586 | - | - | - | - | - |
| Metallurgiya sənayesi | | | | | | | 500 | 2176 | 7690,0 | 12560 | 2436,7 | 53035,2 |
| Maşın və avadanlıqlardan başqa hazır metal məmulatlarının istehsalı | 1788 | | | | | | 9113 | - | - | - | - | - |
| Kompüter və digər elektron avadanlıqların istehsalı | | 5681 | 20,4 | | 5101 | | | 9990 | 19937 | 6073 | 4742,0 | 1239,4 |
| Elektrik avadanlıqlarının istehsalı | | 13,5 | | | | | | - | - | - | - | - |
| Maşın və avadanlıqların istehsalı | 1262 | | 890,3 | 238,4 | 145,5 | 158,3 | 174,9 | 216 | 222,8 | 241,2 | 44,2 | - |
| mebellərin istehsalı | 22,7 | | | | | | | - | - | - | - | - |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 1311 | 1295 | 496,8 | 511,6 | | | | - | - | - | - | - |

**Mənbə: "Azərbaycan sənayesi". Bakı, 2022, 233 s.**

Cədvəl 2-dən görünür ki, Azərbaycanda innovasiya məhsullarının həcmi xeyli aşağı səviyyədədir və təəssüf ki, bu

vəziyyət son illərdə də davam etmişdir. Fikrimizcə, məhz texnoparklardan məhsuldar istifadə edilməklə bu vəziyyəti dəyişmək mümkündür.

Qeyd edək ki, texnoparklar kifayət qədər texniki imkanlara, innovasiyaların işlənməsinə, sınaq-təcrübə işlərinin aparılmasına, eksperimentlərin təşkilinə imkan verən fəaliyyət məkanıdır. Burada yüksək texnologiyalar əsaslı avadanlıqlar, müasir istehsal və emal qurğuları istismar olunur[6].

Sumqayıt Texnologiyalar Parkına 2013-2021-ci illər ərzində yatırılan investisiyaların və ümumilikdə bu texnoparkın səmərəlilik səviyyəsi qiymətləndirilmişdir və bunun üçün cədvəl 3-də verilən göstəricilər əsasında model verilmişdir.

**Cədvəl 3**

**Sumqayıt Texnologiyalar Parkına 2013-2021-ci illər ərzində yatırılan investisiyalar və bir qrup əsas göstəricilərin dinamikası**

| İllər | Yatırılan investisiyaların həcmi, mln. manatla | Məhsul istehsalının dəyəri, mln. manatla | Əsas fondların dəyəri, mln. manat | Gəlir, mln. manat |
|---|---|---|---|---|
| | y | x1 | x2 | x3 |
| 2013 | 200,0 | 18,6 | 28,9 | 197,0 |
| 2014 | 251,0 | 44,8 | 221,6 | 150,5 |
| 2015 | 799,0 | 51,9 | 195,0 | 101,4 |
| 2016 | 814,3 | 58,8 | 184,7 | 94,5 |
| 2017 | 1 045,5 | 80,0 | 172,5 | 82,3 |
| 2018 | 1 048,6 | 79,5 | 157,4 | 197,3 |
| 2019 | 1 049,6 | 90,9 | 194,3 | 97,7 |
| 2020 | 1 052,0 | 50,7 | 193,7 | 69,1 |
| 2021 | 1 052,0 | 142,7 | 175,8 | 68,7 |

Burada yatırılan investisiyaların həcmi asılı dəyişən, digər üç göstərici isə (x1+x2+x3) təsiredici amillərdir:

$$Y = 5,14x_1 + 0,46x_2 - 2,02x_3 + 619,09$$

[6]Əliyev, Ə.Q., Şahverdiyeva R.O. Texnoparklarda innovativ məhsul istehsalı proseslərinin modelləşdirilməsinin ümumi əsasları. İnformasiya cəmiyyəti problemləri, – 2018. № 1, – s.72.

Aldığımız modelə əsasən Sumqayıt Texnologiyalar Parkında 1 manat yatırılan investisiya müqabilində məhsul istehsalının dəyəri 2013-2021-ci illər ərzində 0,46 qəpik təşkil etmişdir.

| *Reqressiya təhlilinin statistikası* | |
|---|---|
| R - çoxamillik | 0,754151346 |
| R - kvadrat | 0,568744252 |
| R -normalaşdırılmış | 0,309990803 |
| Standart xəta | 289,4840588 |
| Müşahidələrin sayı | 9 |

Dispersiya təhlili

| | *df* | *SS* | *MS* | *F* | *əhəmiyyət F* |
|---|---|---|---|---|---|
| Reqressiya | 3 | 552588 | 184196 | 2,198016 | 0,206531 |
| Qalıq | 5 | 419005,1 | 83801,02 | | |
| Cəmi | 8 | 971593,1 | | | |

| | *əmsal* | *Standart xəta* | *t-statistika* | *P-dəyər* | *Aşağı 95%* | *yuxarı 95%* | *aşağı 95,0%* | *yuxarı 95,0%* |
|---|---|---|---|---|---|---|---|---|
| Y-nəticə | 619,0966167 | 676,0874 | 0,915705 | 0,401827 | -1118,84 | 2357,035 | -1118,84 | 2357,035 |
| Amil X 1 | 5,142686679 | 3,327923 | 1,545314 | 0,182932 | -3,41201 | 13,69739 | -3,41201 | 13,69739 |
| Amil X 2 | 0,46165649 | 2,277902 | 0,202667 | 0,847384 | -5,39388 | 6,317189 | -5,39388 | 6,317189 |
| Amil X 3 | -2,02243774 | 2,638713 | -0,76645 | 0,478015 | -8,80547 | 4,760591 | -8,80547 | 4,760591 |

Dispersiya əmsalı vahidə bir o qədər də yaxın deyildir, normallaşdırılmış R isə vahiddən xeyli aşağıdır, müşahidələrin sayı da azdır. Bu modeldə əsasən x1 amilinin təhlili və təsiri qənaətbəxş baxıla bilər. Digər iki x2 və x3 amillərin təhlil edilməsi qənaətbəxş deyildir, belə ki, onların P – dəyərləri aşağıdır. Ümumilikdə belə bir nəticəni qeyd etmək olar ki, Sumqayıt Texnologiyalar Parkında yatırılan investisiyalardan əldə olunan göstəricilər o qədər də yüksək deyildir və baxılan amillər üzrə də sabit dinamika yoxdur.

Texnoparkın gəlirlərinin qeyri-sabitliyi də diqqət çəkir. Təəssüf ki, ölkəmizdə texnoparkın maliyyə-təsərrüfat və digər fəaliyyət göstəriciləri üzrə zəruri statistik məlumatlar rəsmi şəkildə dərc olunmur və Dövlət Statistika Komitəsinin nəşrlərində yoxdur. Cədvəl 3-dəki məlumatların müqayisəsindən yanaşsaq son illərdə davamlı şəkildə investisiyaların yatırılmasına baxmayaraq, Sumqayıt Texnologiyalar Parkının gəlirləri artmamışdır, əksinə azalmışdır. Bu isə onu göstərir ki, belə vəziyyətin yaranmasında digər səbəblər də ola bilər, məsələn texnoparkın istehsal, satış, marketinq və xarici ticarət strategiyalarının zəifliyi və ya olmaması, yaxud yüksək peşəkarlığa malik sabit menecment heyətinin formalaşdırılmaması və s.

Dissertasiya işinin **“Azərbaycanda iqtisadiyyatın innovativ inkişaf etdirilməsində texnoparklardan istifadənin səmərəliliyinin artırılması perspektivləri” adlı üçüncü fəsildə** iqtisadiyyatın innovativ inkişafında texnoparklardan səmərəli istifadə üzrə qanunvericiliyin gücləndirilməsi və təşkilati-iqtisadi mexanizmlərin tənzimlənməsi məsələləri baxılmış, postkonflikt ərazilərin dirçəldilməsi və postpandemiya amilləri kontekstində texnoparkların dövlət dəstəyi mexanzimlərinin təkmilləşdirilməsi və yeni çağırışlar şəraitində iqtisadiyyatın innovativ inkişafında texnoparklardan səmərəli istifadənin təşkili istiqamətləri müəyyənləşdirilmişdir.

Ölkəmizdə bu sahədə mərkəzi icra strukturlarının formalaşdırılması, müvafiq nazirliyin tərkibində - Rəqəmsal İnkişaf Nazirliyinin tərkibində İnnovasiya Agentliyi yaradılmış, müxtəlif universitetlərdə startaplar və s. istiqamətlərində işlər görülməkdədir[7]. Amma ölkədə müasir dövrün tələblərinə, yüksək texnoloji inkişaf səviyyəsinə adevkat olan, texnoloji uklada keçməyə imkan verən fəaliyyətin təşkili üçün innovasiya mərkəzlərinin, innovasiya texnoloji mərkəzlərinin və tədqiqat müəssisələrinin yaradılmasına ciddi ehtiyac vardır.

[7] Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. – Bakı: – 06.11.2018-ci il.

Müasir dövrdə texnoparklarda təşkilati-iqtisadi mexanizmlərinin optimal hazırlanması və reallaşdırılmasının alqoritim-sxemi şəkil 4-də verilmişdir.




**Şəkil 4. Texnoparklarda təşkilati-iqtisadi mexanizmlərin optimal hazırlanması və reallaşdırılmasının alqoritim-sxemi (müəllif tərəfindən hazırlanmışdır).**

İqtisadiyyatın innovativ inkişafının təmin olunmasında texnoparkların potensialının araşdırılması və onların mövcud təşkilati-iqtisadi mexanizmlərinin adekvatlığının, səmərəliliyinin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Texnoparklara verilən güzəştlər və onların açıqlaması sxematik olaraq şəkil 5-də verilmişdir.




**Şəkil 5. Texnoparklara verilən güzəştlər və onların açıqlaması (müəllif tərəfindən tərtib olunmuşdur).**

Texnoparklar yerli və xarici investorlar üçün cəlbedici məkanın təşkili, müvafiq həvəsləndirmə sisteminin və güzəşt mexanizmlərinin olması baxımından əhəmiyyətli üstünlüklərə malikdir. Son onilliklərdə dünyanın texnoloji cəhətdən inkişaf etmiş ölkələrinin əksəriyyəti innovasiyaları stimullaşdırmaq üçün getdikcə daha çox müxtəlif mexanizmlərdən istifadə etməyə başlayıblar.

Şəkil 6-da isə Azərbaycanda iqtisadiyyatın innovativ inkişafında texnoparklardan səmərəli istifadənin təşkili istiqamətləri verilmişdir.




**Şəkil 6. Azərbaycanda iqtisadiyyatın innovativ inkişafında texnoparklardan səmərəli istifadənin təşkili istiqamətləri (müəllif tərəfindən hazırlanmışdır).**

Azərbaycanda texnoparkların inkişafı istiqamətində bir sıra addımlar atılıb. Ölkə Prezidentinin 2014-cü il 15 may tarixli Fərmanı ilə "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə" təsdiq edilmişdir[8]. Eyni zamanda, yeni çağırışlar əsas götürülməklə, dövlət başçısının 2014-cü il 15 may tarixli Fərmanı ilə həmin Nümunəvi Əsasnaməyə dəyişiklik edilməsi barədə 30 dekabr 2022-ci il tarixli fərmanı dərc olunmuşdur[9]. Bu sənədlərdə texnoparkların yaradılması, idarə edilməsi və fəaliyyətinin tənzimlənməsi bağlı məsələlər öz əksini tapıb.

[8]Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 168 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 30 dekabr 2022-ci il.
[9]Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 168 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

Yaxın perspektivdə iqtisadiyyatın innovativ inkişafında texnoparklardan səmərəli istifadənin genişləndirilməsindən ötrü bir sıra strateji tədbirlərin həyata keçirilməsini təklif edirik və vacib sayırıq:

– Texnoparklarda iqtisadiyyatın innovativ inkişafına imkan verən fəaliyyət mexanizmləri işlənilməli və ümumilikdə bu istiqamətdə mümkün potensialdan səmərəli istifadə edilməsi tədbirləri görülməli, innovativ inkişafın əsas prinsipləri və meyarları, bazis şərtləri üzrə problemlər və həlli yolları sistemli şəkildə baxılmalı, dəyərləndirilməli və hər bir problem üzrə optimal həlli yolları müəyyənləşdirilməli, resurs və innovativ inkişaf imkanları obyektiv qiymətləndirilməli, innovativ inkişafı stimullaşdıran məhsuldar mənbələrin formalaşdırılması və inkişaf etdirilməsi tədbirlərini özündə əks etdirən iqtisadiyyatın innovativ inkişafı strategiyası hazırlanmalı və həyata keçirilməlidir;
– Texnoparklarda iqtisadiyyatın innovativ inkişafının daha səmərəli fəaliyyət strategiyalarının yaradılması və uzunmüddətli dövr üçün bu istiqamətdə inkişaf səmtlərinin formalaşmasından ötrü dövlət dəstəyi mexanizmlərinin, o cümlədən vergi güzəştlərinin səmərəliliyinin yüksəldilməsi, stimullaşdırıcı xüsusiyyətlərin gücləndirilməsi, tətbiq olunan güzəştlərin yüksək məhsuldarlığa malik iqtisadi artım bazasının və texnoparklarda innovasiya infrastrukturunun yaradılmasına imkna verməsi şərtləri və tələbləri mütləq şəkildə nəzərə alınmalıdır.

**Dissertasiyanın "Nəticə" bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətə malik nəticələr əldə edilmiş və təkliflər verilmişdir:**

1. Qlobal təhdidlərin artıdğı bir dövrdə texnoparklar ölkə iqtisadiyyatının qlobal təhlükələrə qarşı immunitetinin artırılmasında önəmli rol oynamaqla yanaşı həm də texnologiyalar və innovasiyalar bazarının inkişaf etdirilməsində, iqtisadiyyatın strukturunun diversifikasiyalaşdırılmasında və Azərbaycanın misalında qeyri-

neftqaz sənayesinin ağır maşınqayırma sahəsinin intensiv inkişafına əlavə stimullar verə bilər.

2. Texnoparklarda iqtisadiyyatın innovasiyalaşdırılması mexanizmlərinin tətbiqi zamanı, bu proseslərdə investorlarla yanaşı, ali təhsil, elmi-tədqiqat müəssisələrinin, müxtəlif innovasiya və texnologiya üzrə ixtisaslaşmış müəssisələrin, cəmiyyətlərin, fondların birgə fəaliyyəti üçün əlverişli şəraitin olması hesabına elm və texnologiyaların istehsala tətbiqi proseslərinin sürətləndirilməsi təmin olunmalıdır.

3. 4.0 sənaye inqilabının, rəqəmsal texnologiyaların daha sürətli inkişafın yaratdığı yeni şəraitdə texnoparklardan istifadənin aktuallığı xeyli artacaqdır və bununla əlaqədər yeni texnoparklardan müxtəlif iqtisadiyyat sahələrinin inkişaf etdirilməsində məhsuldar fəaliyyət mühitinin yaradılması mümkündür, belə ki, texnoparklarda rezident-kompaniyaların səmərəli fəaliyyət göstərmələri üçün daha əlverişli şərait, o cümlədən vergi və gömrük güzəştləri mövcuddur.

4. İşğaldan azad olunmuş ərazilərdə yüksək və ilk növbədə "ağıllı" texnologiyaların tətbiqinə üstünlük verilməsi kontekstində artıq sənaye parklarının və iqtisadi zonaların yaradılması proseslərinə başlanılmışdır. Fikrimizcə, bu proseslərdə bir neçə texnoparkın yaradılmasına tələbat vardır və başlıca hədəflər işğaldan azad olunmuş ərazilərin sürətlə formalaşmaqda olan istehsal, nəqliyyat-logistika infrastrukturundan səmərəli istifadənin təmin edilməsi, regionun təbii resursları əsasında sahəvi iqtisadiyyat strukturunun formalaşdırılması, "yaşıl" iqtisadiyyat sahələrinin yaradılması və ümumilikdə ölkə iqtisadiyyatının innovativ inkişafına əlavə töhfələrin verilməsi olmalıdır və s.

## Disertasiya işinin mövzusu üzrə aşağıdakı elmi məqalələr və tezislər dərc edilmişdir:

1. Texnoparklarin iqtisadiyyat sahələrinin innovativ inkişafina təsirinin qiymətləndirilməsi. Elmi əsərlər, AMEA İqtisadiyyat İnstitutu, № 6, Bakı. 2018, səh. 108-114.

2. Qlobal transformasiyalar şəraitində texnoparkların iqtisadiyyatın modernizasiyasında strateji əhəmiyyəti. Elmi əsərlər, AMEA İqtisadiyyat İnstitutu, № 2, Bakı, 2019, səh. 28-34.

3. Azərbaycanda texnopark institutunun səmərəliliyinin yüksəldilməsinin müasir problemləri və həlli yolları. «Geostrategiya» jurnalı, №5, Bakı, 2019, səh. 145-149.

4. Azərbaycanda iqtisadi islahatlar proseslərində texnoparkların rolunun artırılması perspektivləri. AMEA "Xəbərlər" jurnalı. İqtisadiyyat seriyası, №6, Bakı, 2019, səh. 84-92.

5. Перспективы повышения роли технопарков в процессах экономических реформ в Азербайджане. Журнал «Финансовая экономика», №12 (2), Москва, 2020, с. 160-164.

6. Dünya ölkələrində və şirkətlərində texnoparklardan istifadənin nəzəri-metodoloji və praktiki aspektləri. AMEA "Xəbərlər" jurnalı. İqtisadiyyat seriyası, №05, Bakı, 2020, səh. 19-27.

7. Azərbaycanda texnoparklar şəbəkəsinin genişləndirilməsi məsələləri. «Geostrategiya» jurnalı, №06, Bakı, 2021, səh. 73-79.

8. Texnoparklardan istifadənin səmərəliliyinin yüksəldilməsinin maliyyə təminatı. "Azərbaycanın qeyri-neft sektorunun inkişaf perspektivləri" mövzusunda Respublika Elmi konfransının Materialları. Sumqayıt Dövlət Universiteti, 2019, səh. 360-362.

9. Strateji yol xəritəsi çərçivəsində texnoparklardan istifadənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri. Doktorantların və gənc tədqiqatçıların Respublika elmi konfransı. AMİU. Bakı, 2019, səh. 345-347.

10. Xarici-İqtisadi fəaliyyətin gücləndirilməsində texnoparkların rolunun strateji aspektləri. / Azərbaycan Dövlət Neft və Sənaye şUniversitetinin 100 illik yubileyinə həsr edilmiş gənc tədqiqatçı və doktorantların onlayn Elmi Konfransın materialları, Bakı, 2020 may, səh. 1080-1083.

11. Xarici-iqtisadi fəaliyyətin gücləndirilməsində texnoparkların rolunun artırılması məsələləri. "İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər" mövzusunda Beynəlxalq Elmi konfransının Materialları. Sumqayıt Dövlət Universiteti, 2020, iyul, səh. 81-84.

12. Актуальные проблемы эффективности технопарков в современных условиях. IX Международная Научно-Практическая Конференция «Развитие науки и практики в глобально меняющемся мире в условиях рисков », 28 марта 2022 года, с. 268-276.

Dissertasiyanın müdafiəsi 31 oktyabr 2025-ci il tarixində saat 11⁰⁰ da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının ADNSU nəzdində fəaliyyət göstərən BFD 4.26 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1010, Bakı, Azadlıq prospekti 20

Dissertasiya ilə ADNSU kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları ADNSU rəsmi internet saytında yerləşdirilmişdir (https://asoiu.edu.az)

Avtoreferat "01" oktyabr 2025-ci ildə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:30.09.2025
Kağızın formatı:A5
Həcm: 38111 işarə
Tiraj: 100 ədəd